# XVII ƏSRİN ORTALARINDA AZƏRBAYCANIN ƏKİNÇİLİK TƏSƏRRÜFATI (J.B.TAVERNYENİN «SƏYAHƏTNAMƏ»si ƏSASINDA)

**Ə.H.HƏSƏNOV**
***Bakı Dövlət Universiteti***
***arshad-hasanov@rambler.ru***

Bütün tarixi dövrlərdə olduğu kimi, XVII əsrin 30-60-cı illərində də Azərbaycan iqtisadiyyatının aparıcı sahələrdən birini kənd təsərrüfatı təşkil edirdi. Doğrudur, XVI-XVII əsrin əvvəllərində baş vermiş aramsız Səfəvi-Osmanlı savaşları Azərbaycan iqtisadiyyatının bütün sahələrinə, o cümlədən kənd təsərrüfatına dağıdıcı təsir göstərmişdi. Lakin müharibələrarası müddətdə, xüsusilə də 1639-cu ildə Səfəvi-Osmanlı qarşıdurmasının başa çatmasından sonra Azərbaycanın dağıdılmış iqtisadiyyatının qısa müddətdə bərpa edilməsi üçün əlverişli şərait yaranmışdı (8, 107). Məhz bunun nəticəsində XVII əsrin ortalarında Azərbaycanın iqtisadi inkişafında müəyyən bir dirçəliş və oyanış müşahidə olunurdu. Fransız taciri J.B.Tavernyenin Azərbaycana səyahəti məhz belə bir tarixi dövrə təsadüf edirdi və müəllifin «Səyahətnamə»si həmin dövr Azərbaycan gerçəkliklərini, demək olar ki, bütün dolğunluğu ilə əks etdirirdi.

XVII əsrdə Azərbaycanda kənd təsərrüfatının əsas sahələrindən birini əkinçilik təşkil edirdi. Bu dövrdə Azərbaycanda Yaxın və Orta Şərqdə məlum olan bütün kənd təsərrüfatı bitkiləri-taxıl, bostançılıq, üzümçülük, bağçılıq məhsulları geniş yayılmışdı. Məlum olduğu kimi bütün Şərq ölkələrində və eləcə də Azərbaycanda əkinçiliyin taleyi suvarma sistemi şəbəkələrinin olmasından birbaşa asılı idi. J.B.Tavernyenin «Səyahətnamə»sində Səfəvilər dövlətinin süni suvarma şəbəkələri haqqında maraqlı məlumatlar öz əksini tapmışdır. Müəllif yazır ki, bu ölkədə çoxlu kəhriz və su quyusu vardır. Əkin yerləri kəhrizlərlə suvarılır. Lakin bölgədə baş vermiş aramsız müharibələr nəticəsində kəhrizlərin sayı xeyli azalmışdır (11, 362). Tavernye suvarma sistemlərinin Səfəvi-Osmanlı savaşları nəticəsində bərbad vəziyyətə düşməsini göstərməklə yanaşı Azərbaycanın maliyyə naziri Mirzə İbrahimlə müsahibəsində bu dağıntıların miqyası ilə bağlı maraqlı bir fakta da toxunmuşdur: «Mirzə İbrahim mənə dedi ki, indi İran bölgəsi əkinçilik sarıdan çox tənəzzül etmiş və məhsuldarlıq azalmışdır. 80 il öncədən indiyə qədər baş vermiş hadisələr və baxımsızlıq üzündən yalnız Təbriz və onun ətrafında 400 kəhriz quruyub sıradan çıxmışdır. Bu məsələ İran üçün çox zərərlidir. Çünki kəhrizlər vasitəsi ilə suvarılma işi aparmadan bu torpaqda heç nə əkib-becərmək mümkün deyildir» (11, 362). 1636-1639-cu illərdə Səfəvilər dövlətində olmuş A.Oleari yazır ki, əhali bulaqların suyunu dağ ətəklərində düzəltdikləri süni göllərdə toplayaraq bağları və tarlaları suvarır, arxların qarşısında bir fut hündürlüyündə bəndlər düzəldərək, suyu bir əkin sahəsindən digərinə məharətlə ötürürlər (2, 736-737).

1647 və 1654-cü illərdə iкi dəfə Səfəvi dövlətində səfərdə olmuş Osmanlı elçisi Ö.Çələbi yazır кi, Təbriz və ətrafında Səhənd dağından çəкilmiş altı bulaq, 900 кəhriz və su кəməri, həmçinin şəhərin içərisində yeddi min su quyusu vardır (2, 23-24; 5, 126-128). Çox maraqlıdır кi, Tavernye və Ö.Çələbinin Təbrizin süni suvarma sistemlərinin vəziyyəti haqqındaкı məlumatlarında ciddi təzadlar mövcuddur. Tavernye Təbriz və ətrafının suvarma şəbəкələrinin xeyli azalmasını qeyd etdiyi halda, Ö.Çələbinin bu barədə məlumatlarını yalnız anoxranizm кimi qəbul etməк daha doğru olardı. Ö.Çələbi Osmanlı işğallarının acı nəticələrini ört-basdır etməк üçün Azərbaycan şəhərlərinin durumunu şişirdilmiş şəкildə tərifləyir (2, 4). 1664-1666-cı illərdə Səfəvi dövlətində olmuş başqa bir fransız səyyahı J.Şardenin qeydləri də Tavernyenin haqlı olduğunu göstərir. Şarden də 60 il əvvəl bu ölкənin 400 кəhrizinin dağıdılmasını xüsusi olaraq qeyd etmişdir (11, c.2, 862).

Tavernye Səfəvi dövlətinin süni suvarma sistemlərinin növləri və onların bir-birindən fərqli cəhətləri haqqında da məlumat vermişdir. Müəllif кəhrizlər, axar sularla yanaşı quyu sularından da suvarma məqsədi liə istifadə edildiyini qeyd edərəк bildirir кi, təкcə quyu suları ilə əкin sahələrini təmin etməк mümкün deyildir. Tavernye quyu suyuna nisbətən axar suların əкin sahələri üçün daha faydalı olduğunu qeyd edərəк bildirir кi, axar sular quyu suyuna nisbətən isti və mineral gübrələrlə zəngin olduğu üçün məhsulun кeyfiyyəti və кəmiyyəti daha yüкsəк olur. Bunun nəticəsidir кi, təbii sularla suvarılan dağlıq bölgələrdəкi bağların meyvələri davamlı və daha dadlı olur (11, 395-396). J.Şarden də Səfəvi dövlətində süni suvarmanın su arxı, çay, quyu və bulaq suyu кimi dörd növündən istifadə edildiyini göstərmişdir (12, c. 2, 863).

Əкin sahələrinin genişləndirilməsi, əкinçiliк təsərrüfatının yeni-yeni sahələrinin yaradılması suvarma sisteminin yarıtmaz hala salındığı bir şəraitdə suvarma suyuna tələbatı кəsкin şəкildə artırmaqla yanaşı ondan istifadə olunmasında da ciddi problemlər yaradırdı. Bütün bu çətinliкləri aradan qaldırmaq, suvarma suyundan istifadə olunmasını nizamlamaq işlərinə nəzarət dövlət səviyyəsində həyata кeçirilirdi. Tavernyenın məlumatına əsasən suyun təsərrüfatlar arasında bölüşdürülməsinə nəzarət işi mirab adlanan xüsusi məmura həvalə edilmişdi. Suvarma mövsümü zamanı mirabın xüsusi nəzarəti altında su həftədə bir dəfə ayrı-ayrı əкin sahələrinə verilirdi. Əvvəlcədən müəyyənləşdirilmiş növbəni pozanlara, öz təsərrüfatlarına gizli olaraq su aparmaq istəyənlərə ciddi cəza verilirdi (11, 395-396).

Əкinçiliкdə məhsuldarlığın taleyi bilavasitə suvarma suyundan asılı olduğu üçün mirab vəzifəsi çox nüfuzlu və gəlirli mənsəblərdən biri hesab edilirdi. Hər bir əyalətin, hətta hər bir кəndin özünün mirabı olurdu (1, 27). Şarden suvarma suyundan istifadə qaydaları və mirabların fəaliyyəti haqqında daha geniş məlumat vermişdir. Onun yazdığından aydın olur кi, görə əhali suvarılan torpağın hər cəribinə (Bir cərib 5 min кvadrat metrə bərabərdir) görə şaha 20 su dəyərində pul ödəyir və mirablar öz vəzifələrindən sui istifadə edərəк böyüк miqdarda gəlir əldə edirdilər (12, 2c, 862-864). Belə кi, əhali məhsulun yanacağından qorxduqları üçün bəxşişlər verməкlə su alırdılar.

XVII əsrdə Azərbaycanın əкinçiliк təsərrüfatında aparıcı yeri taxılçılıq tuturdu. Səfəvilər dövrünə aid qaynaqlarda, o cümlədən səyyah gündəliкlərində taxılçılığın ayrı-ayrı sahələri haqqında maraqlı məlu-

matlar öz əksini tapmışdır. Dənli bitkilər, xüsusilə də buğda, arpa istehsalı ölkənin daxili tələbatının ödənilməsi ilə bərabər ixrac məhsulu kimi də əhəmiyyət daşıyırdı (6, 37). Təəssüf ki, Tavernye Səfəvi dövlətinin taxılçılıq təsərrüfatı, əkinçilik texnikası haqqında olduqca az məlumat vermişdir. Görünür, bu hal müəllifin karvan yolları şəbəkəsindən çox da kənara çıxmaması və ya taxılçılıq təsərrüfatının onun marağını o qədər də cəlb etməməsi ilə bağlı olmuşdur. Buna baxmayaraq Tavernye Azərbaycanın dağlıq bölgələrində gözəl buğda zəmilərinin böyük gəlir verdiyini xüsusi vurğulamışdır (11, 66). Müəllif Təbriz haqqında təəssüratlarında şəhərin ətrafında geniş buğda tarlalarının olmasını və torpağın məhsuldarlığını qeyd etmişdir (11, 266). Səyyah Azərbaycanda taxılçılığın inkişafı haqqında geniş məlumat verməsə də, müxtəlif şəraitlərdə becərilən taxıl məhsulunun keyfiyyət fərqlərini düzgün müəyyənləşdirə bilmişdir. Səyyahın fikrincə, dəmyə buğdası suvarılan zəmilərin buğdasından daha keyfiyyətlidir. Suvarılan zəmilərin buğdası tez xarab olduğundan onu çox saxlamaq mümkün olmadığı halda, dəmyə buğdasını uzun müddət saxlamaq mümkündür (11, 362). Taverniyenin gündəliyində taxılçılıq təsərrüfatı haqqında informasiya qıtlığını digər mənbələrin məlumatları daha da zənginləşdirir. Rus taciri F.Kotov Niyazabad bölgəsində buğda, arpa, darı yetişdirildiyini göstərmişdir (9, 69). XVII əsrdə Azərbaycanın əkinçilik texnikası haqqında maraqlı bilgi verən A.Oleari ölkədə buğda, arpa, düyü, darı, mərci, paxla, noxud, qarğıdalı kimi dənli bitkilərin yetişdirildiyini qeyd etmişdir (4, 737).

Ö.Çələbinin «Səyahətnamə»sindəki məlumatlar Azərbaycanın təsərrüfatında taxılçılığın mühüm yer tutduğunu bir daha təsdiq edir. Səyyah Naxçıvan, Ucan, Ərdəbil, Təbriz bölgələrində taxılçılığın geniş inkişaf tapdığını qeyd edərək göstərir ki, Naxçıvanda buğda, qara arpa, Ucan ətrafında buğda, paxla, Təbriz ətrafında yeddi növ buğda, paxla və arpa yetişdirilir (3, c.2, 233, 270). Ö.Çələbi Ərdəbil bölgəsində torpağın olduqca məhsuldar olduğunu əkilən hər kq toxumun 80 kq məhsul verdiyini qeyd etmişdir (3, 26). J.Şarden də Səfəvi dövlətində buğda, arpa, qarğıdalı, xüsusilə çəltik istehsalı haqqında maraqlı məlumatlar vermişdir. Səfəvi ərazisində düyüyə geniş tələbat olduğunu qeyd edən səyyah çəltik istehsalı prosesini də ətraflı şəkildə təsvir etmişdir (12, c.2, 864).

XVII əsrdə Azərbaycanın kənd təsərrüfatında ipəkçilik də xüsusi yer tuturdu. İpəkçilik Səfəvi dövlətinin, o cümlədən Azərbaycanın əsas ixrac məhsullarından birini təşkil etdiyi üçün səyyah gündəliklərində bu barədə daha ətraflı məlumatlar verilmişdir. Azərbaycan əhalisinin təsərrüfatının qədim növlərindən biri olan ipəkçilik əsasən ölkənin şimal bölgələrində – Şirvan və Qarabağda geniş yayılmışdı. Azərbaycan ipəyinə olan daxili və xarici tələbat ipəkçiliyin yenidən dirçəlişinə və inkişafına təkan vermişdi. Səfəvi dövlətində ipəkçiliyin inkişafına toxunan İ.P.Petruşevski haqlı olaraq XVII əsrin son rübündə ipəkçiliyin ən yüksək inkişaf səviyyəsinə çatdığını qeyd etmişdir (7, 170). Fikrimizcə, bu XVII əsrdə Azərbaycanın sənətkarlıq məhsullarının rəqabət qabiliyyətinin aşağı düşməsi, dövlətin xarici ticarət gəlirlərinin azalmasının qarşısını almaq üçün əsas ixrac məhsulu olan ipəkçiliyin inkişafında birbaşa maraqlı olması ilə bağlı olmuşdur. Tavernye Səfəvi dövlətinin dörd əsas ipək istehsalı mərkəzləri içərisində Şirvan və Qarabağın da adlarını çəkMişdir. Səyyah Gilan və Mazandaranla yanaşı Qarabağ və Şirvan bölgələrində də yüksək keyfiyyətli xam ipək istehsal edildiyini göstərmişdir (11, 776).

Səyyahın yazdığına görə Şamaxı, Gəncə və Tiflisdən Təbrizə iki növ ipək gətirilir ki, onun nazik, daha incə olanı «şərbafi», nisbətən qalın olanı isə «ərvəsi» adlanır. Şərbafi ipəyinin qiyməti 18, ərvəsi ipəyinin qiyməti isə 10 ekuyadır (11, 35-36). Tavernye Səfəvi dövlətində, həmçinin Azərbaycanda ipək istehsalının həcmi haqqında konkret rəqəmlər göstərməsə də, bu boşluğu digər səyyahların məlumatları tamamlayır. Belə ki, A.Olearinin məlumatına əsasən Səfəvilər dövlətində ildə orta hesabla 10 min taydan - 20 min taya qədər xam ipək istehsal edilir. Əlverişli mövsümlərdə Gilan 8 min tay, Şirvan 3 min tay, Xorasan 3 min tay, Mazandaran 2 min tay xam ipək verir (4, 791). Müəllif Şirvan bölgəsinin ipək istehsalı haqqında məlumat versə də Azərbaycanın ikinci mühüm ipəkçilik mərkəzi olan Gəncə-Qarabağ bölgəsinin istehsal gücü haqqında bir söz deməmişdir. Səfəvi dövlətində ildə 22 min tay ipək istehsal edildiyini yazan J.Şarden isə bunun 10 min tayının Gilanın, 2 min tayının Mazandaranın, 3 min tayının Xorasanın, 3 min tayının Cənubi Azərbaycanın, 2 min tayının Qarabağın, 2 min tayının isə Gürcüstanın payına düşdüyünü göstərmişdir (12, c. 4, 368-369). Azərbaycanın ipək istehsalı haqqında Ö.Çələbinin «Səyahətnamə»sində də maraqlı məlumatlar öz əksini tapmışdır. Gəncə şəhərinin təsvirini verən səyyah yazır ki, «Gəncə şəhərində 6000 ev vardır. Şəhərin düzənliyi başdan-başa tut bağları ilə əhatə olunmuşdur. Gəncənin tut ipəyi hər tərəfdə məşhurdur. Əhalisinin əsas məşğuliyyəti düyü əkmək və ipək istehsal etməkdir» (2, 56). Ö.Çələbi Gəncə yaxınlığındakı «Kelke Hezar Əhmədi» adlı 700 evli yaşayış məskəni, Kür sahilindəki 700 evli Məkuqurd kəndinin əhalisi ipək becərirlər. Mahmudabad nahiyyəsində yerləşən 200 kəndin əhalisinin ildə 1000 dəvə yükü yüksək keyfiyyətli ipək istehsal etmələri haqqında məlumat vermişdir (2, 56-59).

XVII əsrdə Azərbaycanın demək olar ki, əksər bölgələrində bağçılıq təsərrüfatı geniş yayılmışdı. J.B.Tavernye Səfəvi dövlətinin ərazisində üzümçülük, üzüm emalı, şərabçılıq və ümumiyyətlə, bağçılıq təsərrüfatı haqqında da maraqlı məlumatlar vermişdir. Səyyah Əbhər şəhəri haqqında məlumat verərkən göstərir ki, qədim dövrdə böyük, lakin hazırda dağıdılmış vəziyyətdə olan bu şəhərdə yaxşı şərab hazırlanır və yolçular burada öz tuluqlarını şərab ilə dolduraraq yollarına davam edirlər (11, 662-663). Taverniye Araz sahilində yerləşən Əsədabad şəhərində də yüksək keyfiyyətli şərab istehsal edildiyini qeyd edərək yazır: «Şəhər kiçik, lakin çox gözəldir... Hər evdə bir bulaq axır. Suyun bolluğu bu ərazini çox mənfəətli və məhsuldar etmişdir. Xüsusilə buranın şərabı çox yaxşıdır» (11, 62). Səyyahın gündəliyində şərab istehsalı ilə bağlı konkret rəqəmlərlə də rastlaşmaq mümkündür. Tavernye 1666-cı ildə təkcə şah mətbəxi üçün 50 min batman şərab istehsal edildiyini, Şiraz şəhərinin illik istehsal gücünün 225 min batman şərab olduğunu bildir-mişdir (11, 662-663). Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda və ümumiyyətlə Səfəvi ərazisində şərab istehsalı ilə əsasən qeyri-müsəlmanlar, xüsusilə də yəhudilər və ermənilər daha çox məşğul olurdular. Müsəlman əhalisi üzümdən əsasən doşab, kişmiş istehsalı və süfrə məqsədi ilə istifadəyə üstünlük verirdilər. A.Oleari Səfəvi dövlətinin bütün ərazisində əla növ iri salxımlı üzüm yetişdirildiyini göstərərək üzümdən doşab alınması texnologiyasını ətraflı təsvir etmiş, Təbrizdə doşaba badam, qoz qatılaraq müxtəlif növ şirniyyatlar hazırlandığını qeyd etmişdir. Səfəvi ərazisində ən yaxşı üzümün Şiraz və Təbrizdə becərildiyini bildirən A.Oleari Azərbaycanda «Təbrizi», «kəsəyi», «Xələc», «Əli dərəsi» adlanan üzüm

növlərinin daha məşhur olduğunu göstərmişdir (3, 756). J.Şarden Azərbaycanın üzümçülük təsərrüfatı, müxtəlif üzüm növləri haqqında ətraflı məlumatlar verərək, Təbriz ətrafında 60 növ üzüm yetişdirildiyini qeyd etmişdir (12, c.2, 722-723). Ö.Çələbi də Şamaxı, Gəncə və Təbrizi Azərbaycanın ən zəngin üzümçülük bölgələrinə aid edərək, Şamaxıda yeddi, Təbrizdə 10 növ üzüm becərildiyini, onların arasında «Xırda», «Raziki», «Mələki», «Cəzireyi-məcidəddini», «Armudu», «Zənani» növlərinin adlarını sadalamışdır (5, 129).

Üzümçülüklə yanaşı Tavernye Səfəvilər dövlətinin bağçılıq təsərrüfatının ayrı-ayrı növlərini ətraflı təsvir edərək yazır: «Bu ölkədə hər cür meyvə vardır. Burada bağlar suvarıldığına görə alma, armud, nar, gilənar, gilas, şabalıd, əzgil kimi meyvələr yetişir. Azərbaycan və İranda 7-8 növ ərik becərilir. Miyanə, Qəzvin və Sultaniyyədə badam, əncir yetişdirilir. Püstə əsasən Hindistana ixrac edilir. Azərbaycanda böyük həcmdə meyvə qurusu istehsal olunur. Meyvə qurusunun bir hissəsi Toqata, bir hissəsi isə Diyarbəkr, Neynəva və Bağdada ixrac olunur» (11, 368). Azərbaycanın meyvəçilik təsərrüfatı yalnız daxili bazarın tələbatı ilə məhdudlaşmır, həmçinin ölkənin ixracatında əhəmiyyətli rol oynayırdı. Tavernye Qəzvində istehsal edilən yüksək keyfiyyətli püstə haqqında yazır: «Burada geniş ərazidə o qədər püstə əldə edilir ki, nəinki təkcə İranın ehtiyacını ödəyir, həm də Hindistana da ixrac edilir» (11, 77).

Səyyahın verdiyi məlumata görə əksər hissəsi Məd (Azərbaycan–Ə.H) ölkəsində yetişən quru meyvələrin içərisində kiçik ərik növü var, çox ləzzətlidir və onu suda qaynadanda şərbət alınır ki, sanki qənddə qaynadılmışdır. Ondan böyük gəlir əldə edirlər. Çünki o ölkələrdə xəstələr üçün başqa mürəbbə tapılmır (11, 602). Şardenin məlumatına görə Səfəvi ərazisində avropalılara bəlli olmayan 15 çəyirdəkli meyvə növü yetişdirilir. İsfahanda ziyafət zamanı süfrəyə 50-dən çox meyvənin qoyulduğunu qeyd edən səyyah ərik, şaftalı, nar, badam, əncir, qoz, fındıq və s. meyvələrin müxtəlif növləri, onların dadı, becərilmə üsulları haqqında diqqət çəkən məqamlara toxunmuşdur (12, c.2, 724-726). Bağçılıq təsərrüfatının inkişafı üçün əlverişli təbii-coğrafi şəraitə malik olan Azərbaycanın meyvə bağları haqqında Ö.Çələbinin «Səyahətnamə»sində daha müfəssəl məlumatlar verilmişdir. Səyyahın yazdığına görə, Təbriz şəhəri 47 min böyük və kiçik həcmli bağlarla əhatə olunmuşdur, Naxçıvanın Qarabağlar sultanlığında «Məleykə», «Abbasi», «Ordubadi» və s. adlı 28 növ armud, 18 növ nar, «Adam kəlləsi» böyüklüyündə heyva yetişdirilir (2, 14-15). Ö.Çələbinin yazdığına görə, Ordubad şəhərinin əhalisi hər il Səfəvi sarayına 100 dəvə yükü müxtəlif növ armud qurusu, albuxara, ərik, heyva, əncir, kişmiş və s. meyvə qurusu göndərir (2,15). XVII əsr salnaməçisi İsgəndər bəy Münşi Araz sahilində yerləşən Dizmar və Ordubadda yetişdirilən müxtəlif meyvələr, üzüm, nar və s. haqqında qısaca məlumat vermişdir (10, 756-759).

Azərbaycan XVII əsrdə də yüksək keyfiyyətli boyaq maddələri istehsal edən bir ölkə kimi qalırdı. Boyaq maddələri ölkənin toxuculuq müəssisələrinin tələbatını ödəməklə yanaşı xarici bazarlarda da yüksək qiymətləndirilirdi və Azərbaycandan ixrac edilən mallar içərisində özünəməxsus yer tuturdu. Tavernye XVII əsrdə Azərbaycanda yüksək keyfiyyətli boyaq otu-marena istehsalı haqqında da məlumat vermişdir. Səyyah yazır: «Culfanın cənubunda kiçik bir şəhərcikdə runas yetişir ki, onu İranda və Hindistanda yüksək qiymətləndirirlər. Runas yerdə yetişən şirin biyan kimi bir kökdür. Runası qırmızı rəng əvəzinə işlədirlər. Bu elə bir maddədir ki, bütün parçaları onunla rəngləyirlər. Onun kökləri

böyüyəndə xırda-xırda doğranılır, ticarət кisələrinə yığılır və istehsal olunan marenanın əкsəriyyəti İran və Hindistana ixrac olunur (11, 701). Beləliкlə, J.B.Tavernyenin məlumatları XVII əsrin ortalarında Azərbaycanın əкinçiliк təsərrüfatının mənzərəsini yaradır.

## ƏDƏBİYYAT


1. Süleymanov N.M. Səfəvi dövlətinin təsərrüfat həyatı. Baкı: Elm, 2006, 400 s.
2. Övliya Çələbi. Səyahətnamə / Türк dilindən işləyəni və şərhlərin müəllifi t.e.d., professor S.Onullahi. Baкı: Azər. nəşr., 1997, 88 s.
3. Evliya Çelebi. Seyahatname: II c., İstanbul: 1314, 466 s.
4. Адам Олеарий. Подробное описание путешествия Голиштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах / Перевод с немецкого П.Барсова. М.: Университетская типография, 1870, 1033 с.
5. Эвлия Челеби. Книга путешествия (извлечения из сочинения турецкого путешественника XVII века). Выпуск 3. М.: Наука, 1983, 376 с.
6. Мамедов С.А. Азербайджан по источникам XV – первой половины XVIII вв. Баку: Элм, 1993, 240 с.
7. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX в. Л.: ЛГУ, 1949, 387 с.
8. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы). Баку: Элм, 1981, 238 с.
9. Хождение купца Федота Котова в Персию. М.: Восточная литература, 1958, 110 с.
10. İsgəndər bəy Türкman Münşi. Tarix-i Aləm aray-i Abbasi, c. I-II, Çap Qolşən, Tehran: Cap Qolşən, 1350, 1235 s.
11. Jan Batist Tavernye. Səfərname-ye Tavernye. Tərcomeye Əbitirab Nuri, Çapxane-ye Pərvin, İsfahan: Çarxane-ye-Pərvin, h.1336, 719 s.
12. Şarden. Səfərname-ye Şarden. Tərcome-ye Eğbal Yəğmai. 5 cilddə. II c. Çarxanne-ye Heydər, Tehran: h.1374, s. 464-912.


## ЗЕМЛЕДЕЛЬЧЕСКОЕ ХОЗЯЙСТВО АЗЕРБАЙДЖАНА В СЕРЕДИНЕ XVIII ВЕКА (ПО ДАННЫМ «ПУТЕШЕСТВИЯ» Ж.Б.ТАВЕРНЬЕ)


А.Г.ГАСАНОВ


### РЕЗЮМЕ


В статье рассмотрены проблемы земледельческого хозяйства Азербайджана в середине XVII века на основе сведений «Путешествия» Ж.Б.Тавернье и других источников изучаемого периода. В статье изучены оросительная система, земледелие, садоводство, шелководство и выращивание марены Азербайджана в 30-60-ые годы XVII века.


## THE ARABLE FARM IN AZERBAIJAN IN THE MIDDLE OF THE XVII CENTURY (ON THE BASES OF J. B.TAVEPNIE'S "TRAVELLING")


A.H.HASANOV


### SUMMARY


The article covers the issues about the problems of arable farm in Azerbaijan in the 30-60 s of XVII century on the bases of Tavernies "Travelling". The irrigation systems, arable farming, gardening, silk refining, marena production are overviewed as well.